E-1497

Azərbaycan Respublikası
Standartlaşdırma, Metrologiya və Patent üzrə
Dövlət Komitəsi
Apellyasiya şurasının
Qərarı

Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə
Dövlət Komitəsinin
Apellyasiya şurası

Z.T.Hacıyevin sədrliyi ilə,
üzvlər– N.F.Nəsibova, E.Ş.Qafarov

etiraz verən "Gallaher Limited" şirkətinin */ünvan: Members Hill, Brooklands Road, Weybridge, Surrey KT13 0QU, United Kingdom/* nümayəndəsi, patent müvəkkili X.Məmmədovanın iştirakı ilə,

Z.T.Hacıyevin məruzəsilə etiraz ərizəsi üzrə işə baxaraq müəyyən etdi:

14.12.2017-ci il tarixdə "Gallaher Limited" şirkətinə məxsus **"MADE WITH PASSION SIGNED WITH PRIDE"** əmtəə nişanının 34-cü sinfin əmtəələri üzrə qeydiyyata alınmasına dair ekspertizanın 11.09.2017-ci il il tarixli rədd qərarına qarşı iddiaçının nümayəndəsi, patent müvəkkili X.Məmmədova tərəfindən "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikası Qanununun 15-ci maddəsində nəzərdə tutulmuş əsaslara görə Apellyasiya şurasına etiraz ərizəsi daxil olmuşdur.

Etiraz ərizəsi onunla əsaslandırılmışdır ki, 05.10.2016 ildə "Gallaher Limited" adına "MADE WITH PASSION SIGNED WITH PRIDE" əmtəə nişanına ƏXBT-nın 34 sinifinin əmtəələrinə dair № 2016 33212 iddia sənədi verilmişdir. "Patent və Əmtəə Nişanları Mərkəzi" publik huquqi şəxs nişanın qeydiyyatına dair rədd qərarı vermişdir. İddiaçı ekspertizanın qərarı ilə tanış olduqdan sonra aşağıdakıları bildirir.

Ekspertizanın fikrincə iddia edilən nişan "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra - Qanun) 6-cı maddəsinin "a" bəndinin tələbini pozur ki, ona əsasən eyni olan və onlara qarışdırılacaq bənzər olan nişanlar əmtəə nişanı kimi qeydə alınmır ki, onlar daha əvvəl mühafizə edilən əmtə nişanları kimi başqa şəxsin adına qeydə alınmışdırlar, yəni, bir sahibkarın mallarının digər sahibkarın mallarından fərqlənmə qabiliyyəti funksiyası itirilmiş olsun.

Ekspertiza rədd qərarını "British American Tobacco (Brands) Inc." (US) /ünvanı – 2711 Centerville road, Suite 300, Wilmington, Delaware/ adına 34-cü sinifin əmtəələri üzrə 12.03.2013-cü il tarixli N 2014 0726 saylı qeydiyyata alınmış **"MADE WITH PRIDE"** əmtəə

nişanına əsaslanaraq vermişdir. Lakin iddia edilən "MADE WITH PASSION SIGNED WITH PRIDE" işarəsinə ƏXBT-nin 34 sinifdən olan əmtəələrə münasibətdə hüquqi mühafizə təqdim edilməlidir: "emal edilmiş və ya emal edilməmiş tütün; siqaret tütünü, qəlyan tütünü, özübağlananlar üçün tütün, saqqızlıq tütün, "snus" saqqız tütünü; siqaretlər, papiroslar, electron siqaretlər, siqarlar, siqarillalar; iyləmək üçün tütün; 34 sinfinə daxil edilən siqaret çəkmək üçün ləvazimatlar; siqaret, papiros kağızı, siqaret gilizləri və kibritlər", belə ki, onlar Qanunun 6-cı maddəsinin "a" bəndi ilə reqlamentləşdirilən tələbləri pozmur ki, bunun təsdiqi aşağıdakılardır:

Əmtəə nişanının qeydiyyatı üçün iddianın təqdim edilməsi və ekspertizası Qaydalarının (bundan sonra – Qaydalar) 29.6 bəndinə müvafiq olaraq oxşarlığın müəyyən edilməsi səs, qrafik və məna əlamətləri üzrə aparılmalıdır. İddia edilən "MADE WITH PASSION SIGNED WITH PRIDE" işarələməsi 6 sait (e, i, a, a, i, a) и 18 samit (m, y, d, v, z, p, ş, n, s, y, n, d, v, z, p, r, y, d) səsdən ibarətdir ki, bu aşağıda göstərilən 6 hecanın ayrılmasına imkan verir:

MADE – WITH – PASSION – SIGNED – WITH – PRIDE

Müqayisə edilən "MADE WITH PRIDE" işarələməsi 3 sait (e, i, a) və 5 samit (m, y, d, v, z, p, r, y, d) səsdən ibarətdir ki. Bu 3 hecanın ayrılmasına imkan verir:

MADE – WITH – PRIDE

Fonetik olaraq söz iki WITH hecasının və fərqli PASSION – SIGNED hecalarının mövcudluğu səbəbindən fərqli qəbul edilir. İddia edilən "MADE WITH PASSION SIGNED WITH PRIDE" işarələnməsi latın əlifbası ilə standart şriftlə yerinə yetirilmişdir. Müqayisə edilən "MADE WITH PRIDE" işarələnməsi də latın əlifbası ilə standart şriftlə yerinə yetirilmişdir.

Lakin vizual olaraq işarələnmələr uzunluqları, ikiqat "WITH", eləcə də fərqli yerləşməli "PRIDE" mövcudluğu səbəbindən müxtəlif qəbul edilir. Beləliklə, göstərilən əlamətlər qrafik oxşarlıq yaratmır və təhlil edilən işarələnmələrin eyni görnüşlü kimi qəbul edilməsinə gətirib çıxarmır ki, bu da əmtəə nişanlarının qarışıq salınması ehtimalı daha da azaldır. Təhlil edilən "MADE WITH PASSION SIGNED WITH PRIDE" və "MADE WITH PRIDE" işarələnmələri özlərində müəyyən semantik mənaları daşıyırlar. "MADE WITH PASSION SIGNED WITH PRIDE" işarələnməsi müəyyən mənaya malikdir ki, bu "EHTİRASLA İSTEHSAL EDİLİB, FƏXRLƏ İMZALANIB" mənasını bildirir. Müqayisə edilən "MADE WITH PRIDE" işarələnməsi isə "FƏXRLƏ İSTEHSAL EDİLİB" mənasını verir. Beləliklə, müqayisə edilən işarələnmələrin oxşarlıq dərəcələrinin tam təhlili göstərdi ki, iddia edilən "MADE WITH PASSION SIGNED WITH PRIDE" işarələnməsi N 2014 0726 saylı qeydiyyatlı "MADE WITH PRIDE" əmtəə nişanı ilə qarışdırılacaq dərəcədə oxşar deyil. 2016 33212 saylı iddia üzrə "MADE WITH PASSION SIGNED WITH PRIDE" işarələnməsi fərqləndirici qabiliyyətə malikdir, yəni, Qanunun 1, 4-cü maddələrinə uyğundur və Qanunun 6-cı maddəsinin tələbini pozmur. İddiaçı qeyd edir ki, nişanlar digər ölkələrdə də qoşa istifadə edilirlər, "British American Tobacco" adına qeydiyyatdan keçmiş yalnız iki "MADE WITH PRIDE" əmtəə nişanını – Gürcüstan və Azərbaycanda – mövcuddur. Yuxarıda göstərilənlərdən çıxış edərək 2016 33212 saylı iddia üzrə "MADE WITH PASSION SIGNED WITH PRIDE" işarələnməsi əmtəə nişanı qismində Azərbaycan Respublikası ərazisində qoruna bilər. Deyilənlərə əsaslanaraq, iddiaçı rədd qərarına yenidən baxmağı və Gallaher Limited (GB) adına "MADE WITH PASSION SIGNED WITH PRIDE" əmtəə nişanına № 2016 33212 iddia sənədi üzrə ƏXBT-nın 34 sinifinin əmtəələrinə dair Azərbaycanda mühafizə verməyi xahiş etmişdir.

Apellyasiya şurası etiraz ərizəsinə baxaraq, etiraz üzrə məruzəni, etiraz edən iddiaçının nümayəndəsi, patent müvəkkili X.Məmmədovanın çıxışını dinləyib, hesab edir ki, iddia təmin edilməməlidir.

Apellyasiya şurası etiraza baxılma prosesində qeyd etdi ki, nişanların oxşarlığını müəyyən etmək üçün "Əmtəə nişanlarının qeydə alınması barədə iddia sənədinin verilməsi və ekspertizası Qaydaları"nın 29.6.1-ci "Sözlərdən ibarət nişanların (işarələrin) oxşarlığını müəyyən etmək üçün onlar müqayisə edilir", 29.6.2-ci "Səs üzrə (fonetik) oxşarlıq", 29.6.3-cü "Qrafiki (görünüşlü) oxşarlıq", 29.6.4-cü "Məna etibarı ilə", 29.9.1-ci *("Əmtəələrin və ya göstərilən xidmətlərin həmcins olmaları müəyyən edilərkən, bu əmtəələrin və ya göstərilən*

*xidmətlərin eyni sahibkara məxsus olması barədə istehlakçıda yarana biləcək təsəvvürlər nəzərə alınır")* və 29.9.2-ci *("Əmtəələrin və ya göstərilən xidmətlərin həmcins olması müəyyən edilərkən, xüsusən əmtəənin cinsi (növü) və ya göstərilən xidmətlərin şərtləri, istehlakçıların dairəsi və digər şərtlər nəzərə alınır")* bəndlərində göstərilən əlamətlər nəzərə alınmalıdır.

Apellyasiya şurası işi araşdıraraq müəyyən etdi ki, "Gallaher Limited" şirkəti "MADE WITH PASSION SIGNED WITH PRIDE" (2016 33212) əmtəə nişanını 34-ci sinifin əmtəələri üzrə qeydiyyata alınması üçün 05.10.2016-cı il tarixdə "Sənaye Mülkiyyəti Obyektlərinin Ekspertizası Mərkəzi"nə iddia sənədi ilə müraciət etmişdir.

Ekspertiza "MADE WITH PASSION SIGNED WITH PRIDE" (2016 33212) əmtəə nişanının qeydiyyata alınmasına dair rədd qərarını, Azərbaycan Respublikasında daha əvvəlki ilkinliyə malik olan 12.03.2013-cü il tarixində 34-cü sinifin əmtəələri üzrə "American Tobacco (Brands) Inc. (US)" */ünvan:2711 Centerville Road, Suite 300, Wilmington, Delaware 19808,/* adına qeydiyyata alınmış "MADE WITH PRIDE" (2014 0726) adlı əmtəə nişanına əsaslanaraq vermişdir.

Apellyasiya şurası qeyd etdi ki, **"MADE WITH PASSION SIGNED WITH PRIDE"** (2016 33212) və qarşı qoyulmuş **"MADE WITH PRIDE"** (2014 0726) əmtəə nişanlarında əsas oxşarlıq yaradan element **"MADE WITH PRIDE"** işarəsidir. Sözlərdən ibarət yaradılmış müqayisə edilən əmtəə nişanlarının başlandığı hissəsi **"MADE WITH"** və axırıncı hissəsi **"PRIDE"** üst-üstə düşür. İddia olunan nişanda qalan hissəsi **"PASSION SIGNED WITH"** işarənin ortasında verərək cəhətdən qarışdırılacaq dərəcədə oxşardır. Həmçinin müqayisə edilən əmtəə nişanlarının 34-cü sinifinə aid olan əmtəələri üst-üstə düşür və ya həmcinsdir.

**"MADE WITH PRIDE"** 34-cü sinifə aid olan əmtəələrin xüsusi şərtilə yaradılması barədə istehlakçıya məlumat verir. Yəni istehsalçı ona məxsus digər əmtəə əmtəə nişanına əlavə element kimi daxil olaraq (sloqan çərçivəsində) öz əmtəələrini reklam edir. Qeydiyyatda olan **"MADE WITH PRIDE"** sloqana digər şəxs tərəfindən əlavə tərifləmə sözlərin qoşulması **"PASSION SIGNED WITH"** müqayisə edilən işarələrin fərqlənməsinə imkan vermir. Müqayisə edilən işarələrdə ümumi görünüşlü təəssürəti qalır.

**"MADE WITH PRIDE"** (2014 0726) adlı əmtəə nişanının ilkinlik tarixi 12.03.2013-cü il tarixidir.

"Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikası Qanunun 10-cu maddəsinə görə "MADE WITH PRIDE" (2014 0726) adlı əmtəə nişanının ilkinliyi üstündür.

Qeyd edilənləri nəzərə alaraq Apellyasiya şurası hesab edir ki, müqayisə edilən əmtəə nişanları oxşardır.

Şərh edilənlərə əsasən, "Əmtəə nişanlarının qeydə alınması barədə iddia sənədinin verilməsi və ekspertizası Qaydaları"nın 29.6.2-ci, 29.6.3, 29.6.4-cü, 29.9.1-ci və 29.9.2-ci bəndlərini nəzərə alaraq, "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikası Qanununun 6-cı maddəsinin "a" və "b" bəndlərini, 10-cu maddəsini rəhbər tutaraq, Apellyasiya şurası

Qərara aldı:

1. **"MADE WITH PASSION SIGNED WITH PRIDE"** (2016 33212) əmtəə nişanının 34-cü sinifin əmtəələri üzrə qeydiyyata alınmasına dair ekspertizanın 11.09.2017-ci il il tarixli rədd qərarına qarşı iddiaçının nümayəndəsi, patent müvəkkili X.Məmmədova tərəfindən verilmiş etiraz ərizəsi əsassız hesab edilsin və təmin olunmasın.
2. **"MADE WITH PASSION SIGNED WITH PRIDE"** (2016 33212) əmtəə nişanının 34-cü sinifin əmtəələri üzrə qeydiyyata alınmasına dair ekspertizanın 11.09.2017-ci il il tarixli rədd qərarı qüvvədə saxlanılsın.
3. Apellyasiya şurasının qərarını aldığı tarixdən 3 ay ərzində Azərbaycan Respublikasının İnzibati Prossesual Məcəlləsi ilə müəyyən edilmiş qaydada məhkəməyə şikayət verilə bilər.

Apellyasiya şurasının sədri: Z.T.Hacıyev

Üzvləri: N.F.Nəsibova

E.Ş.Qafarov